BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 Humanitar elmlər seriyası 2015

UOT 94 "19/..."

# İKİNCİ DÜNYA SAVAŞINDAN SONRA URDUNDA İNGİLTƏRƏ-ABŞ RƏQABƏTİ

**G.İ.QARAYEVA**
***Bakı Dövlət Universiteti***
***qarayeva1947@hotmail.com***

*Savaşdan sonrakı birinci onillik ərzində Yaxın və Orta Şərq ölkələrini təsir altına almaq uğrunda ABŞ-la İngiltərə arasında rəqabət kəskinləşdi. Bu rəqabətin ən bariz nümunəsini regionun çox da böyük olmayan dövlətlərindən biri Urdunun tarixində görmək mümkündür. ABŞ-ın Urdunda möhkəmlənmək niyyəti onun İngiltərənin və Fransanın regiondakı mövqelərini ələ keçirmək məqsədindən irəli gəlirdi. Ona görə də, London bu ciddi rəqabət və zamanın tələbi şəraitində ABŞ-la yaxınlaşmaqla öz mövqelərini qoruyub saxlamağa çalışırdı. Savaşdan sonra güclü iqtisadiyyata və maliyyə imkanlarına malik olmayan Ingiltərə öz mövqeyindən bir qədər geri çəkilməli idi. Lakin bu addım elə atılmalı idi ki, ABŞ-ın regionda artan nüfuzu şəraitində Londonun mövqeyinin tamamilə əldən verilməsinə gətirib çıxarmasın.*

**Açar sözlər:** Urdun, Conson planı, Eyzenhauer

İkinci dünya savaşından sonra Yaxın və Orta Şərqin geniş regionu ABŞ-ın böyük diqqət verdiyi əsas obyektə çevrildi. ABŞ-ın hakim dairələri İngiltərəni həmin regionda sıxışdırmaq hesabına öz mövqelərini möhkəmləndirməyə çalışırdılar. Savaşdan sonrakı birinci onillik ərzində iri dövlətlərin Yaxın və Orta Şərqdə nüfuz bərqərarı uğrunda rəqabəti kəskinləşdi. Bu mübarizənin ən bariz nümunəsini regionun çox da böyük olmayan dövlətlərindən biri Urdunun tarixində izləmək mümkündür. Urdun dövləti bu rəqabətin gedişində öz xarici siyasətini formalaşdırmağa çalışırdı.

Belə ki, istər İngiltərə, istərsə də ABŞ-ın hakim dairələri üçün Urdun lap əvvəldən strayeji əhəmiyyət daşımışdır. Bu mənada, əvvəllər Urdunda xidmətdə olmuş Britaniya polkovniki Pikin bu ölkənin strateji əhəmiyyəti haqqında söylədiklərini qeyd etmək məqsədəuyğun olardı. 1936-cı ildə Mərkəzi Asiya Kral Cəmiyyətinin yığıncağında etdiyi çıxışı zamanı Pik Urdun haqqında belə söyləmişdi: "Regionda Urdunun əhəmiyyətini nəzərdən qaçırmaq olmaz. Qədim Misir, Assuriya, İran, Roma, Xaçlılar, Osmanlı və Britaniya imperiyalarının hakimləri belə bir postulatı qəbul edirdi ki, Urdunda sabitlik olmadan

Suriya, Fələstin, Sinayda sülh və təhlükəsizlikdən söhbət gedə bilməz" (1, 11). Urdunun digər strateji əhəmiyyəti isə onun coğrafi mövqeyi ilə birbaşa bağlıdır. Hələ uzaq keçmişdə aparılan ticarətdə əsas karvan yollarının Urdundan keçməsi onun daim diqqət mərkəzində olmasını əsaslandırmışdır. Qədim misirlilər Ərəbistandan mal gətirərkən, daha sonralar isə nəbateylər və romalılar Hindistanla qızğın ticarət əlaqələrini genişləndirərkən məhz Urdun ərazisindən istifadə edirdilər.

Xatırladaq ki, bu dövlətin yaranmasından bu günədək keçdiyi tarixi yola nəzər yetirdikdə burada əsasən İngiltərə və ABŞ-ın rəqabətinin, eləcə də, Urdunun bu dövlətlərlə münasibətlərində etdiyi manevrlər diqqəti cəlb edir. Bu da təsadüfi deyil. Haşimilər sülaləsi bu dövləti İngiltərə tərəfindən Türkiyəyə qarşı vuruşması əvəzində Londonun birbaşa xeyir-duası ilə qurmuşlar. Məhz buna görə idi ki, Suriya ərazisinin bir hissəsini İngiltərə Haşimilərə dövlət qurmaq üçün verməklə bir növ bu sülaləyə olan borcunu qaytarırdı. Lakin bununla da, yeni bir problemin - Fələstin probleminin əsası qoyulurdu.

Şəxsən Uinston Çörçil tərəfindən hazırlanmış layihə əsasında Feysəl İraqa kral təyin edilmiş, Fələstin ərazisindən isə bir hissə ayrılaraq, Mavriurdun adı altında əmirlik yaradılmışdır. Ərəb ölkələrində ingilislərin qələbəsinin təmin edilməsində mühüm rol oynamış, Məkkə şərifi Hüseynin digər oğlu Abdullah bura əmir təyin edilmişdi. Mavriurdunda ingilislərin maliyyəsi və ingilis zabitlərinin təlimi əsasında "ərəb legionu" yaradıldı. Legionun yaradıcısı ingilis Pik və davamçısı isə milliyyətcə ingilis olan, gözəl ərəb dilndə danışan və bədəvi ərəblər kimi geyinən Qlabb paşa idi.

Ağır sosial-iqtisadi böhran keçirən Urdun maliyyə, iqtisadi və texniki yardıma çox böyük ehtiyac duyurdu. Haşimilərin birbaşa Londonun xeyir-duası ilə dövlət qurmasına baxmayaraq, İngiltərə Urdunun ehtiyac duyduğu yardımı etmək imkanlarına malik deyildi. İngiltərəyönlü kral Abdullahın dövlət yaratmaq istiqamətindəki fəaliyyəti ilə bağlı götürdüyü öhdəliyi tam yerinə yetirə bilməməsi isə, ilk növbədə, Vaşinqtona yaranmış vəziyyətdə revanş götürməyə şərait yaradırdı. Digər tərəfdən isə, ABŞ-Urdun arasında diplomatik münasibətlərin olmaması ABŞ-ın qəti addımlar atmasının qarşısını alırdı. Odur ki, Vaşinqton Londonla kompramisə getməyin məqsədəuyğun olduğunu dərk edirdi. İngiltərənin İsraili rəsmi tanıması müqabilində ABŞ-ın Urdunla diplomatik əlaqələr qurması Londona da regionda manevr etmək imkanları açırdı.

ABŞ-ın Urdunda möhkəmlənmək niyyəti onun Böyük Britaniyanın və Fransanın regiondakı mövqelərini ələ keçirmək məqsədindən irəli gəlirdi. Ona görə də, London bu ciddi rəqabət və zamanın tələbi şəraitində ABŞ-la yaxınlaşmaqla öz mövqelərini qoruyub saxlamağa çalışırdı.

Həm Yaxın və Orta Şərqdə gedən milli azadlıq mübarizəsi, həm də ABŞ-ın bu regionda İngiltərə ilə güclü rəqabəti şəraitində London digər müstəmləkələri kimi Urduna müstəqillik vermək məcburiyyətində idi. Savaşdan sonra güclü iqtisadiyyatı, maliyyə imkanlarının olmaması və yaranmış beynəlxalq münasibətlər fonunda İngiltərə öz mövqeyindən bir qədər geri çəkilməli idi.

Lakin bu addım elə atılmalı idi ki, ABŞ-ın regionda artan nüfuzu şəraitində Londonun mövqeyinin tamamilə əldən verilməsinə gətirib çıxarmasın. Bu, xüsusilə, Urduna münasibətdə daha vacib idi.

ABŞ bir sıra ərəb ölkələrinin İngiltərəyə olan mənfi münasibətindən öz xeyrinə faydalanmağa çalışırdı. Hətta ABŞ nüfuzundan istifadə edərək İsrailin qonşu ərəb ölkələri ilə, o cümlədən, Urdunla yaranmış su problemini həll etmək üçün cəhd göstərdi. İsrail dövləti yarandığı zamandan ərəb ölkələri onu tanımaqdan imtina etmiş və ona qarşı iqtisadi boykot elan etmişlər. İsrail dövləti bir sıra sahələrdə problemlə üzləşməli oldu ki, bunlardan ən mühümü ölkənin su ilə təminatı məsələsi idi. İsrailin su ehtiyat mənbələrinin dörddə üçündən çoxu ərəb ölkələrində yerləşirdi. Sahil düzənliyindən və Neqev səhrasından Urdun çayının çəkilməsi üçün müəyyənləşmiş transisrail su ambarının tikilməsinə qarşı çıxan və boykot edən ölkələrə Suriya başçılıq edirdi. 1950-ci illərin ortalarında ABŞ prezidenti D.Eyzenhauerin xüsusi səlahiyyətli nümayəndəsi Erik Conson bu plan üzrə tərəflərlə danışıqlar apardı (2, 280) “Conson planı” kimi tanınan bu planın bəndlərindən biri Kineret gölündən Urdun və Yarmuk çaylarının daşqını zamanı yaranmış su ambarı kimi istifadə etmək idi. İsrail, Urdun, Lubnən və Suriyanın texniki ekspertlərinin ikiillik müzakirəsindən sonra Urdunun təklif etdiyi vahid planın bütün mövcud detalları üzrə razılıq əldə edildi. Əslində bu layihə ərəb ölkələrı üçün İsraildən az əhəmiyyət kəsb etmirdi.

Urdunda monarxiya üsul-idarəsi hakim idi və həm İngiltərə, həm də ABŞ-ın mövqeyi üçün hakimiyyətdə kimin olmasından çox şey asılı idi.ABŞ-ın Urdunda möhkəmlənməsi və dəstəklənməsində bu amil mühüm əhəmiyyət kəsb edirdi. Bu mənada, İngiltərə ilə rəqabət şəraitində ABŞ-ın mövqeyi bir qədər zəif idi və ABŞ-Urdun münasibətlərindəki bu zəif “həlqə”ni Vaşinqton aradan qaldırmaq üçün müxtəlif yollar aramaqda idi.

Fələstində daha iki dövlətin əsasının qoyulmasına dair BMT kvorumla səs verdikdən sonra Urdun kralı Abdullah yeni yaradılan ərəb dövlətinin ərazisini (Qəzzə bölgəsindən başqa) işğal etdi. Qəzzə bölgəsini isə Misir tutmuşdu. Əslində belə bir addımın atılmasında təhrikçi İngiltərə olsa da, Kral Abdullah bu ərazidə möhkəmlənmək üçün ABŞ-dan dəstək almaq istəyirdi. Urdunun həmin əraziləri öz torpaqları elan etməsi ərəb ölkələri tərəfindən narazılıqla qarşılandı. Kral Abdullahın İsraillə sülh danışıqları aparması onun həyatı bahasına başa gəldi (3, 372).

20 iyul 1951-ci ildə Qüdsün əl-Aksa məscidinə girişi zamanı Urdun kralı Abdullah və onun 16 yaşlı nəvəsi Hüseyn Fələstin qaçqınının gülləsinə tuş gəldilər. Abdullah başından aldığı güllədən dünyasını dəyişdi, nəvəsini isə döşündəki orden xilas etdi. Abdullahın öldürülməsi yuxarıda qeyd etdiyimiz tendensiyanı ABŞ-İngiltərə rəqabətini, eləcə də, Vaşinqtonun burada qəti möhkəmlənmək istəyini bir daha üzə çıxarırdı. Həmin dövr İngiltərənin baş naziri Ettli parlamentdəki çıxışında qeyd etmişdi ki, İngiltərə kralı Abdullahın timsalında sadiq dost və müttəfiqini itirmişdir. Uinston Çörçill isə Abdullahı İngiltə-

rəyə sadiq qalan, heç vaxt ona xəyanət etməyən ərəb hakimi adlandırmışdır (4). Məlum olduğu kimi, kral Abdullahın hakimiyyəti dövründə İngiltərənin mövqeyi çox güclü idi. Bu isə ABŞ-ın Urdunda möhkəmlənmək istiqamətindəki fəaliyyətinə mane olurdu. Lakin 1951-ci ilin yazında ABŞ-ın Urdundakı müvəqqəti işlər vəkili Devid Fritçlend Urdun ilə danışıqlara başladı. Vaşinqton bu danışıqlarda İngiltərənin əldə etdiyi imtiyazlara malik olmaq istəyirdi. Əvəzində isə ABŞ Abdullahın istədiyi Hicaz və qonşu dövlətlərin bəzi ərazilərini Urduna verməyi vəd edirdi. Lakin kral Abdullah bu təklifi qəbul etməmiş, İngiltərənin «Böyük Suriya» planının həyata keçirilməsində daha maraqlı olduğunu bildirmiş və bununla da, o, Ingiltərəyə sadiq qaldığını bir daha sübut etmişdir.

Kral Abdullahın ölümündən və oğlu Təlalın qısa hakimiyyətindən sonra kral Hüseyn (1952-1999) hakimiyyətə gəldi. Kral Hüseyn hakimiyyətə çox ağır bir durumda başladı. Çünki o, Nasirlə Qərb dövlətləri arasında baş verən mübarizənin təsirinə məruz qalmışdı. Hüseyn atasından fərqli olaraq İngiltərəyönlü siyasət yeridirdi. Yetişdiyi mühüt də bunu diktə edirdi. Hüseyn İngiltərənin Xarrou universitetində təhsil almış, Sendxorstdə ingilis hərbi akademiyasını bitirmiş, hətta reaktiv təyyarə idarə etməyi də öyrənmiş və ingilis qadını ilə evlənmişdir.

Keçən əsrin 40-cı illərinin sonu – 50-ci illərinin əvvəllərində ABŞ-ın da Urdunda mövqeyi möhkəmlənirdi. ABŞ-ın Urdunda möhkəmlənməsinə şərait yaradan digər amil isə ABŞ neft şirkətlərinin burada neft yataqları aşkar etməsi idi. 1951-ci ilin payızında Vaşinqtonun yardım proqramı çərçivəsində ABŞ ekspertləri Urdunda neft yataqları aşkar etdikdən sonra neft şirkətləri Urduna yardım edilməsi barədə dövlət departamentinə müraciət etdilər. Nəticədə, ABŞ-ın Edvin Pauli neft şirkəti ilə Urdun hökuməti arasında 1955-ci il oktyabrın 30-da neft yataqlarının istismarına dair 55 il müddətinə müqavilə imzalandı. Müqaviləyə uyğun olaraq, Edvin Pauli şirkəti 8 ay müddətində bütün Urdun ərazisində neft kəşfiyyatı aparmaq hüququ qazandı. Neft yataqları kəşf ediləcəyi təqdirdə şirkət ölkənin üçdəbir hissəsində fəaliyyət göstərə bilərdi. Aparılan tədqiqat və axtarışlar nəticəsində ABŞ-ın Edvin Pauli neft şirkəti müqaviləni tam həcmdə həyata keçirməyə müvəffəq oldu.

1951-ci ildə Urdunda ABŞ iqtisadi əməkdaşlıq təsisatlarının yaradılmasını müəyyən edən strateji əhəmiyyətli müqavilə imzalandı. Müqavilədə Urdunda ABŞ-ın Texniki Əməkdaşlıq İdarəsi yaradılması nəzərdə tutulmuşdur. Urdunun maliyyə, kənd təsərrüfatı, səhiyyə, təhsil və digər nazirliklərinin nəzdində yaradılan ABŞ idarələri Texniki Əməkdaşlıq İdarəsinə tabe edilirdi. Urdun hökuməti müqaviləyə görə nazirliklər nəzdində birləşmiş idarələrdə, eləcə də, texniki əməkdaşlıq idarəsində çalışan bütün ABŞ əməkdaşlarına diplomatik toxunulmazlıq hüququ vermişdi.

Bununla belə, ABŞ əldə olunmuş uğurlarla kifayətlənmək istəmirdi. 1952-ci il fevralın 12-də Əmmanda ABŞ və Urdun arasında texniki əməkdaşlıq haqqında yeni bir müqavilə imzalandı. Bu müqavilə 1951-ci il müqaviləsindən daha strateji və əhəmiyyyətli müqavilə olmaqla ABŞ-ın Urdunda mövqelərini

qəti şəkildə möhkəmlənməsinə hərtərəfli şərait yaradırdı. Müəyyən dərəcədə bu müqaviləni 1951-ci il 27 fevral müqaviləsinin davamı kimi də qiymətləndirmək olar. Çünki hər iki müqavilə Vaşinqtonun regionda möhkəmlənməsinə xidmət edirdi. Onu da qeyd edək ki, ikinci müqavilə birincidən daha konkret olmaqla Urdunda ABŞ iqtisadi əməkdaşlıq təsisatlarının yaradılmasını, Amerika ekspert və mütəxəssislərinin hüquqlarını müəyyən edirdi.

1953-cü ilin yazında ABŞ-ın dövlət katibi Corc Foster Dallesin və Təhlükəsizliyin birgə təmini idarəsinin rəhbəri Carold Stavvenin Urduna gəlməsi ilə əlaqədar olaraq xalq kütlələrinin geniş çıxışları başlandı. Bu dövlət xadimlərinin qarşısında duran əsas məsələ ərəb ölkələrinin bu regiondakı hərbi bloka cəlb etməkdən ibarət idi. Lakin bu Urdun daxilində narazılıqlara səbəb yaratdı. Onların Əmmanda olduqları vaxt böyük bir qrupun layihələşdirilmiş hərbi bloku ittiham edən çıxışları oldu. Bu qrupa fəhlələr, kəndlilər, vəkillər, həkimlər, müəllimlər, mülki məsləhətçilər və parlamentin deputatları daxil idi. Əmman, Nəblus və digər şəhərlərdəki evlərin divarlarında Amerika siyasətçilərinin Urdunu tərk etməsini tələb edən yazılar yapışdırılmışdı.

Baş qərargah rəisi general Cerald Templer və Xarici İşlər Nazirliyinin şərq departamentinin rəhbəri Maykl Rouzun Urduna səfərində əsas məqsəd də Əmmanı bu bloka cəlb etmək idi. Misir, Suriya və Səudi Ərəbistanı kimi ərəb ölkələrindən fərqli olaraq Urdun Bağdad paktını müdafiə edirdi və bu birliyə daxil olmağa hazırlaşırdı. Kralın münasibətini ştab rəisinə olan əsəbi cavabında da görmək olar: “Mən kralam! İstəyirəm, Bağdad paktına daxil oluram, istəyirəm amerikalıları çağırıram! Bu mənim ölkəmdir” (5, 119). Aparılan danışıqlardan sonra 10 dekabr 1955-ci ildə Urdun-İraq müqaviləsi imzalandı. Müqaviləyə əsasən İraq bir sıra öhdəlikləri, o cümlədən, Urdun milli qvardiyasına 100 min dinar bəxş etməyi öz üzərinə götürdü. Misir prezidenti C.Ə.Nasir dərhal Templer missiyası əleyhinə təbliğata başladı (6, 152).

Bağdad paktı ilə bağlı mücadilə ərəblər arasında ərəb millətçiliyinin rəqibsiz ideoloji bir güç kimi gündəmə gəldiyi bir zamanda baş verdi. C.Ə.Nasirin təbliğatı qərbyönümlü ittiffaqlara girmək istəyən ərəb ölkələrinə bir mesaj idi. Bu səbəbdəndir ki, İraqdan başqa heç bir ərəb ölkəsi Bağdad paktına daxil olmadı. Belə bir vəziyyətin yaranacağını ABŞ hakim dairələri təxmin edə bilmişlər. Elə buna görədir ki, ABŞ-ın paktı dəstəkləyəcəyini elan etməsinə və onun fəaliyyətinə böyük dəstək verəcəyini bildirməsinə baxmayaraq paktın üzvü olmadı. ABŞ Bağdad paktına qatılmasının Yaxın Şərqdə əldə etdiyi böyük gəlirlərə zərər verəcəyindən narahatlıq keçirirdi, eyni zamanda, Misir və Səudi Ərəbistanı ilə sahib olduqları bağları da tamamən qırmaq istəmirdi (7, 124).

C.Ə.Nasirin Sovet İttifaqından silah alması ilə bağlı müqavilə imzalaması ərəb dünyasında çox böyük səs-küyə səbəb yaratdı. Qahirə radiosundan yayılan təbliğat Nasiri əfsanəvi bir qəhrəmana çevirmişdi. Hətta Urdun parlamenti C.Ə.Nasirə teleqram göndərdi: ”Urdun Milli Məclisi sizin ərəbizm ruhunuzu alqışlayır və ərəb ölkələrinin müdafiəsi üçün silah əldə etmək uğrunda apardığınz mücadiləni sərhədsiz və şərtsiz olaraq dəstəkləyirik” (6, 151). Vaşinqton

Sovet İttifaqı tərəfindən təpgilərə məruz qala biləcəyini də nəzərdən qaçırmırdı. Lakin bütün bunlara baxmayaraq, ABŞ pakta rəsmən qatılmasa da, onun fəaliyyətinə dəstək verirdi və bir çox ərəb ölkələrinin, o cümlədən, Urdunun pakta daxil olmasını istəyirdi.

Lakin Misir Urduna qarşı kəskin təbliğata başladı və ölkə rəhbərliyini Qərb və Amerikayönlü siyasət yeritməkdə suçladı. Bu Bağdad paktının yaranması dövrünə təsadüf edirdi. Urdun əhalisinin Nasirə qarşı aşırı məhəbbəti Bağdad paktına qarşı çıxışlara rəvac verirdi. Urdunda bu proseslərə qarşı nümayişlərin başlaması ölkəni siyasi sabitliyin pozulmasına doğru aparırdı. Yaranmış vəziyyətdə, 1956-cı il martın 2-də ingilis zabitlərinin Urdundan çıxarılmasına gətirib çıxardı. Həmin il iyulun 31-də hökumətin Urdun KP MK-nın Katibi Fuad Nassarı həbsdən azad etməsi, bu ölkədə gedən siyasi proseslərin haradan idarə edilməsini, faktiki olaraq, bütün dünyaya nümayiş etdirdi. Oktyabrın 29-da Milli Sosialist partiyasının lideri Süleyman ən-Nəblusinin yeni hökumət yaratması həmin qənaəti bir daha təsdiqlədi. Urdunda seçkilərdə nasiryönlü qüvvələrin qələbə çalması ölkə daxilində Qərb əleyhinə əhval-ruhiyyəni daha da gücləndirmişdi (8, 99).

Bütün bu siyasi və diplomatik proseslərdə ABŞ-ın aktivliyinin mahiyyəti və məzmunu ilə Vaşinqtonun Urdun, İraq, Səudi Ərəbistanı, Bəhreyn, eləcə də regionun monarxiya quruluşlu digər ölkələrində möhkəmlənmək arzusu idi. Urdunun Bağdad paktına tam hüquqlu üzv kimi cəlb edilməsi uğursuzluqla nəticələnsə də, həmin siyasi proseslərin nəticəsi onun həmin blokun iqtisadi komitələrinə üzv edilməsi dolayısı ilə yeni Vaşinqton-London siyasətinin məntiqi nəticəsi idi.

Həmin dövr Urdun hadisələri İngiltərə, Fransa və İsrailin Misirə təcavüzü fonunda getdiyindən Yaxın və Orta Şərqdəki vəziyyətdə ABŞ revanş götürmək məqamını gözləyirdi. Əslində regiondakı proseslərdə İsrailin birbaşa və ya dolayı yolla iştirakı Vaşinqtonun mövqeyini müəyyən etməyə imkan verirdi. Bu mənada, Misirə təcavüz uğursuzluqa nəticələndikdən sonra ABŞ digər ərəb ölkələri kimi Urduna da Eyzenhauer doktrinasından irəli gələn müvafiq maddə və şərtlər çərçivəsində əməkdaşlıq təklifləri etdi. Nəblusi hökuməti ABŞ-ın yeni iqtisadi yardımını, ölkənin ağır sosial-iqtisadi böhranı şəraitində qəbul etməyə məcbur oldu. Bu proseslərin fonunda diqqəti çəkən əsas məsələlərdən biri bu idi. Urdunda bir rejimin digəri ilə əvəz edilməsi tam ideoloji mübarizə şəraitində gedirdi. Kommunistlərin hakimiyyətə gəlməsi ilə Urdun ölkənin ehtiyac duyduğu yardımı əldə etməyə, eləcə də, təcili həllini gözləyən problemlərin yerinə yetirilməsində kifayət qədər maliyyə və iqtisadi bazaya malik deyildilər. Belə bir vəziyyətdə, ABŞ-ın Urduna yardımı Amerikayönlü qüvvələrin siyasi proseslərdə öndərliyi ələ almasına şərait yaratdı. Digər tərəfdən, ideoloji mübarizə şəraitində Urdunda fəaliyyət göstərən İngiltərə və ABŞ şirkətləri də hökumətə qarşı öz iddialarından yan keçmədilər. Belə ki, 1957-ci il fevralın əvvəlində «Trumen proqramı»nın 4-cü bəndini həyata keçirən Amerika missiyası ABŞ-Urdun birgə fondunun fəaliyyətini dayandırdı. İngiltərənin «Şell» şirkəti

1957-ci il iyulun 1-dən etibarən Urdunda fəaliyyət göstərən bütün filiallarının fəaliyyətini dayandırdı. Bu isə ölkədə mövcud olan ağır sosial-iqtisadi vəziyyəti daha da ağırlaşdırdı. Nəticədə, ölkədə hakimiyyət böhranı yarandı.

24-27 fevral 1957-ci ildə Misir, Suriya, Səudi Ərəbistanı və Urdunun dövlət başçılarının Qahirədə keçirilən müşavirəsində Səud "Eyzenhauer doktrinası"nın müdafiəsinə qalxsa da istənilən nəticə əldə olunmadı. Kral Səudu yalnız Urdun kralı müdafiə etdi. C.Ə.Nasirin, Ş. əl-Qüvvətlinin, Səudi Ərəbistanının özündə ictimai fikrin təzyiqi altında kral Səud "doktrina"nın müdafiəsindən imtina etməyə və "ərəb dünyasının müdafiəsini ərəb ölkələri özləri həyata keçirməlidir" kimi şüarlarla həmfikir olduğunu bəyan etdi (9, 400). Ərəb ölkələrinin təsiri altında Urdun öz arzusuna xilaf olaraq Eyzenhauer doktrinasından imtina etmək məcburiyyətində qaldı. Lakin buna baxmayaraq, ABŞ aprel ayında Urduna 10 mln. dollarlıq iqtuisadi yardım göstərdiyi kimi, iyun ayının sonunda 10 mln. dollarlıq hərbi yardım edəcəyini açıqladı (10, 506).

1957-ci ildə ölkədə monarxiya əleyhinə başda fələstinlilər olmaqla və Nasirin də müdafiə etdiyi qüvvələr çıxış edirdi (11, 288). 10 aprel 1957-ci ildə yeni hökumətin yaradılması isə artıq qərbyönümlü qüvvələrin uğuru idi. Hüseyn Fəxri əl-Xalidi hökumətinin yaradılmasından dərhal sonra 29 apreldə ABŞ Urduna 10 mln.dollarlıq hərbi məqsədlər üçün yardım etdi. İki ay müddətində Urduna 30 mln. dollar maliyyə yardımının edilməsi əvvəlki 6 il ərzində edilən maliyyə yardımına bərabər idi (12, 199).

1958-ci ilin fevralında Misir və Suriyanın birləşməsindən sonra yaranan balansda paritetə nail olmaq məqsədilə həmin il 14 fevralda İraq və Urdunun daxil olduğu Ərəb Federasiyasının yaradıldığı elan edildi. Ərəb Federasiyasının yaradılması ABŞ tərəfindən dəstəkləndi. Həm Birləşmiş Ərəb Respublikasının, həm də Ərəb Federasiyasının yaradılması regiondaxili, xüsusilə də, ərəb ölkələri arasındakı münasibətlərin kəskinləşməsinə səbəb oldu. Bu hadisəni «Bərəkətli Aypara» və «Böyük Suriya» istiqamətində atılması planlaşdırılan ilk addım kimi səciyyələndirən və qiymətləndirən bir sıra ərəb ölkələri bu birliyin əleyhinə çıxış etdilər. İraqda dövlət çevrilişinin baş verməsi və respublika elan edilməsi səbəbindən Ərəb Federasiyasının fəaliyyəti dayandı.

1958-ci il 14 iyul inqilabı nəticəsində İraqda Haşimi sülaləsinin hakimiyyətdən salınması kral Hüseynin narahatlığına və öz taxt-tacının qorunması yönümdə mücadiləyə əsas vermişdir. Ölkə daxilində müəyyən qüvvələr kral Hüseyni devirmək istiqamətində fəaliyyətə başladılar. Kral Hüseyn ona qarşı hazırlanan sui-qəsdi zərərsizləşdirmək məqsədilə öz ordularını hərəkətə gətirdi. Səudi Ərəbistanının Urdundakı hərbi qüvvələri kralın ixtiyarına verildi. ABŞ isə açıq şəkildə kral Hüseyni bütün vasitələrlə dəstəkləyəcəyini bildirdi.

İnqilab nəticəsində regionun məruz qala biləcəyi təhlükəni qabaqlamaq məqsədilə kral Hüseyn hökuməti ABŞ və İngiltərə hərbi qüvvələrinin Lubnən və Urdun ərazilərinə gəlməsinə və 1958-ci ilə kimi burada qalmasına razılıq verdi. Belə ki, 17-18 iyul 1958-ci ildə İngiltərə Kral Hüseynin hakimiyyətini qorumaq üçün Kıprızdakı 2000 əsgər bölgəyə göndərilmiş və bununla da Urdu-

nu dəstəklədiklərini nümayiş etdirmişlər (11, 289). BƏR-in Urdunun daxili işlərinə qarışdığı üçün kral Hüseyn həmin ölkə ilə diplomatik münasibətləri kəsdi (13, 190).

ABŞ-ın Urdunda möhkəmlənmək niyyəti, eyni zamanda, onun Böyük Britaniyanın və Fransanın regiondakı mövqelərini ələ keçirmək məqsədindən irəli gəlirdi. Ona görə də, London bu ciddi rəqabət və zamanın tələbi şəraitində ABŞ-la yaxınlaşmaqla öz mövqelərini qoruyub saxlamağı məqsədə uyğun hesab etdi. 50-ci illərin axırı və 60-cı illərin əvvəllərindən ABŞ və İngiltərənin mövqelərində yaxınlaşma özünü göstərməyə başladı. ABŞ-ın Urdunda möhkəmlənməsi ona İranda, ərəb ölkələrində, o cümlədən, Səudi Ərəbistanında, Küveyt, eləcə də, Bəhreyn adalarında möhkəmlənməsinə və burada sülhməramlı planların həyata keçirilməsinə əlverişli şərait yaradırdı. Bunun üçün isə, ABŞ bu ölkədə möhkəmlənmək üçün revanş götürmək istəyirdi. Belə bir vəziyyət isə, 50-ci illərin əvvəllərində yarandı. Urdunun daxili sosial-iqtisadi vəziyyəti ABŞ-a bu ölkədə öz nüfuzunu bərqərar etmək imkanı verdi. Urdun hər il ABŞ-dan 40 mln.doll. yardım alırdı (5, 119). Fələstin probleminin həlli istiqamətində aparılan danışıqlar, əldə edilmiş razılaşmalar və digər diplomatik proseslər fonunda Urdunun rolu ABŞ-Urdun münasibətlərində özünü göstərdi.

Kral Hüseynin hakimiyyətə gəlişi həm London, həm də Vaşinqton üçün müqabil fiqur olsa da, son anda Hüseyn də babası kimi Ingiltərəyə sadiq qaldığını bütün dünyaya sübut etdi. 47 illik hakimyyəti dövründə Kral Hüseyn ABŞ-ın regiondakı siyasətində uyğun mövqedə durmasına və ABŞ-ın sadiq dostu adını almasına baxmayaraq, qardaşını varislikdən uzaqlaşdırmaqla ingilis arvadından doğulmuş oğlu Abdullahı kral təyin etdi. Bununla isə, Böyük Britaniyaya bir daha sadiq qaldığını bildirdi.

**ƏDƏBİYYAT**


1. Лебедев Е.А. Иордания в борьбе за независимость. М.: Госполитиздат,1956, 128 с.
2. Грюн Д. Водные ресурсы и арабо-израильские отношения. Общество и политика современного Израиля. Сборникстатей. М.: 2002, с.280
3. Bernard Lewis. The Middle Easy 2000 years of Histori from the Present Day. London, 1995, p.372
4. Qarayeva G., Hacıqədirli A. Ərəb ölkələrinin sosial-iqtisadi və siyasi inkişafının xüsusiyyətləri. Bakı: Adiloğlu, 2012, 475 s.
5. Мирский Г.И. Арабские народы продолжают борьбу. М.: Международные отношения, 1965, 135 с.
6. Adid Davişa. Arap Milliyetçiliyi zaferden umutsuzluğa. İstanbul: Şefik, 2004 , 374 s.
7. Mustafa Kayar. Türk Amerikan ilişkilerinde İrak sorunu. İstanbul: Çağaloğlu, 2003, 480 s.
8. Джонатан Блоч, Патрик Фитцджеральд. Тайные операции английской разведки. М.: Политиздат, 1987, 236 с.
9. Васильев А.М. История Саудовской Аравии. М.: Наука, 1982, 400 с.
10. Fahir Armaoğlu. 20 yüzyil siyasi tarihi.1914-1980. Ankara:TİSA, 1983, 506 s.
11. Tayyar Arı. Geçmişten Günümüze Orta Doğu Siyaset, Savaş və Diplomasi. İstanbul: Alfa Yay, 2000, 880 s.
12. İsmayıl R., Axundova N., Bağırova A. Ərəb ölkələrinin çağdaş tarixi. Bakı: Afpoliqraf, 2013, 399 s.
13. Türk-İrak ilişkiləri (1932-1963). Ankara: Hacettepe Üniversiteti, 1990, 232 s.

## КОНКУРЕНЦИЯ АНГЛИИ И США В ИОРДАНИИ ПОСЛЕ ВТОРОЙ МИРОВОЙ ВОЙНЫ

**Г.И.ГАРАЕВА**

### РЕЗЮМЕ

В течение первых десяти лет после войны борьба между США и Великобританией за влияние в странах Ближнего Востока обострилась. Ярким примером этой конкуренции может послужить история одного из небольших государств региона - Иордании. Целью США в укреплении влияния в Иордании была связана с намерением взять в руки позиции, принадлежавшие Англии и Франции в регионе. Таким образом, в условиях серьезной конкуренции, Лондон старался сохранить свою позицию сближения с США. После войны, не имея достаточно сильные финансовые и экономические возможности, Англия вынуждена была сдать свои позиции. Этот шаг должен быть сделан таким образом, чтобы Лондон окончательно не сдал свои позиции в условиях усиления влияния США в регионе.

**Ключевые слова:** Иордания, план Джонсона, Эйзенхауэр

## ENGLAND-USA OPPOSITION AFTER WORLD WAR II IN JORDAN

**G.I.GARAYEVA**

### SUMMARY

Within the first decade after the war, rivalry beetwen England and USA for authority on Mıddle-East sharpened. It is more vivid in the history of Jordan. USA’s intent of becoming stronger in Jordan came from England’s and France’s territories in the region. That is why, London was trying to get closer to USA. After the war, London, having poor economy and budget, had to step back. But this step had to be taken carefully not to lose its position in these areas to keep its interests.

**Key words:** Jordan, Johnson plan, Eisenhower